PEŞMANÇILIQ

Üç gün idi ki, səbirsizliklə gözlədiyim gün gəlib çatdı. Maaş günü. Cədvələ qol çəkdim, pulu aldın. Doğma bir iy burnuma dəydi. Bu iy həmişə çox işlənmiş pul alanda məni vurdu. Tələsik paltarımı dəyişdim, bayıra çıxdım. Mərkəzi yolla addımlayıram. Bu yol rayon mərkəzindən restorana aparır. Yolun qırağındakı ərzaq mağazasına girdim. İstəyirdim bir araq götürüm. Restoranda baha çıxır. Fikrimdən vaz keçdim, öz-özümə dedim: 150 ilə kifayyətlənərəm. Axır vaxtlar çox içmək lap məni əldən salıb, zəhirmarı tərgidə də bilimirəm. Zarafat deyil, 7 ildir ki, içirəm. İçməyə 20 yaşımdan başlamışam. Bir də tərgitməyə qoyurlar ki, hey öz-özümü danlayıram ki, yaman iradəsiz adamam. Aldığım pulun hamısı restoranlara gedir. özüm də az almıram. Mükafatla birlikdə 200-ə (iki yüzə) qədər çıxır. Di gəl ay yarı olmamış gör cibimdə bir qəpik qalırmı? Başlayıram ondan-bundan borc almağa. Hər borc alanda da özümü söyürəm ki, heç kəsdən bir də borc almayacam. Yenə də hər şey yenidən təkrar olunur.

Restorana tərəf addımladım. İnanırsanmı, özüm istəməsəm də, ayaqlarım aparırdı. Özümdən asılı olmayaraq gedirdim. Vərdiş eləmək yaman pis şeydi. Pis şeyə adət eləmə, elə ki adət elədin tərgitmək çətindir. Bəlkə bu mənə görə belədir. Nə bilim, amma mən hər halda belə düşünürəm.

Yolun kənarındakı uzun çinarın dibində Ariflə rastlaşdım. Məni görən kimi gülümsündü. Bilirdi ki, maaş günü idi. Ona 30 manat borcum varıydı. İstədim elə oradaca çıxarıb verəm, razı olmadı. Yaman afirist adamdı. Qoluma girib, restorana tərəf irəlilədi. Mənə dedi ki, ə, hələ qoy dursun, qaçmırıq ki, sonra verərsən, 30 manat nə puldur ki! Mən də razılaşdım, halbuki ürəyimdə razı deyildim. Bilirdim ki, vermək lazımdı. Elə həmin saat vermək lazımdı. Amma verə bilmədim. Əvvəllər mən belə deyildim. Bir şeyi fikirləşdim ki, qəti yerinə yetirirdim. İndi isə yox. Bəzən özüm istəmədiyim şeylərlə də razılaşıram. Bəlkə də, içmək məni bu hala salıb.

Avtobus dayanda. O, söhbətinə ara verdi. Onlar iki yoldaş idilər. Yoldaşın uzun tayı yuxarıdakı, sizin nəzərinizə çatdırdığımız söhbəti böyük ürək ağrısı ilə boyca özündən kiçik olan yoldaşına danışırdı. Mən onlardan arxa cərgədəki oturacaqda əyləşmişdim. Avtobus tərpəndi. O, yenə söhbətinə davam etdi,

Bax, dünənlər Arifin əynindəki xarici kostyumu, ayaqqabını görəndə özüm öz üst-başımdan iyrəndim. İnanırsanmı, iyrəndim. Bəzən insan öz-özündən də iyrənə bilir. Bəli, iyrənir. Hey düşünürəm ki, Arif məndən az maaş ala-ala necə olur ki, belə səliqəli, gözəl, həmişə də təzə geyinə bilir, mən yox! Elə bilmə ki, mən xain adamam, yox! Ömrümdə heç kimə xainliyim tutmayıb! Dünən Arifə də həsəd aparmışdım. Özümdən acığım gəlirdi. Məni düz başa düş, bilirsənmi? Heç nədən adicə münasibətlərdə həyatı uduzanlara özüm uşaqlıqdan nifrət edirəm. Qram-qram xırdalananlar, kiçilənlər, öz insani simasını itirənlər mənim çodanki düşmənidir. Onları görəndə gözümün içi də ağrıyır. Bax, mən dünən qəti olaraq hiss etdim ki, mənim öz varlığım da yox olmaq üzrədir. Bir qədər keçsə, mən özümü itirəcəm. İnsan mənəviyyatında isə itirilənin yenidən bərpa edilməsi öz yerində qaytarılması çox çətin işdir.

Mən bilirdim ki, Arif bir qəpik də hesab verən deyil. O, yaxşı yağlı sağlıq deməyi və pulu qurtaranlara borc verməyi bacarır. Mənə hər borc verəndə də üstünə bir dünyalıq minnət qoyur:

- Bax, axırıncı əlli manatımdır. 25-i sənin, 25-i də mənim.

Mən dəqiq bilirəm ki, Arifin o birisi cibində azı 100 manat var. Mən onu da demək istəmirəm ki, Arif ya bir qeyrisi hesablarını mənimlə bölməlidir. Güya mən onların cibindən xəbərdar olmalıyam. Yox, mən bunu da istəmirəm. Heç mənim buna haqqım da yoxdur. Mənim dediyim olur ki, Arif indiyə qədər elə ustalıqla pullarımı xərclədib ki, heç özümün də xəbəri olmayıb. Bax dünən yenə mənimlə görüşən kimi ucadan:

-Yeyib-içən oğlanlara eşq olsun-deyə elə səmimiyyətlə gülümsündü ki, istər-istəməz onun qarşısında mum kimi yumşadım. Mənə gülmə qardaş, hətta onun kefini də soruşdum. 30 manatını gecikdirdiyim üçün ondan üzr də istədim. Arif də yenə hey məni tərifləyirdi:

- Ə, nə danışırsan, qardaş canı, sənin kimi oğul bu rayonda yoxdur. Dünən bir yerdə yenə yeyib-içirdik. Səni o qədər tərifləmişəm ki, stolun arxasında əyləşən bütün yoldaşlar sənlə tanış olmaq arzusundaydılar. Bu dünya beş günlükdür, canımçün düz eləyirsən. Yeyib-içmək qalacaq. Bu yay sənidə özümlə Rusiyaya aparacağam. Gedib oraları da görərsən, havanı-suyunu dəyişərsən. Orada bir başqa aləmdir, qardaş!

Mən bilirdim ki, Arif bu sözlərin hamısını boğazdan yuxarı deyir. O birisi tində görüşdüyü başqa birinə də yüzcə qram araq aldırmaqdan ötəri eynən bu sözləri deyəcək. Mən bunları başa düşürdüm. Qəribə burasıydı ki, mən onun 30 manatını verib, birdəfəlik ondan ayrıla bilmirdim. Bax, mənim zəifliyim də buradaydı.

Restorana çatdıq. Arif istədiyi kimi sifariş edirdi. 1 araq, 4 kabab, ayran, salat və s. İçdikcə Arif gözümdə mələkləşirdi. Onun dediyi tərif ürəyimdən olurdu. Hesabı mən verdim. Qabaqca mən dedim, mən də verməliydim. Bu şübhəsiz idi. Yaman dəmləşmişdim. Dəmləşməyim də ordan başladı ki, mən hesabı verəndə Arif çoxdan tanıdığımız restoran xidmətçisinə göz vurdu. O da mənə baxıb qəribə tərzdə gülümsədi. Bu gülümsəmədən ürəyim bulanan kimi oldu. Açıq-aydın onun hiyləgər gözlərindən oxunurdu ki, yaxşı hərifləmisən.

Bu göz vurmadan, afisiantın hiyləgər baxışlarından sonra Arif üzümdən də öpdü. İnanırsanmı elə bu öpüşdən sonra dünyanın havasını çəkib çıxardılar. Mənə hava çatışmırdı. Nəfəs almağım çətinləşirdi, qusdum. Nə yemişdimsə, hamısını qaytardım, hamının nəzərləri mənə dikilmişdi. Yəqin ki, hamı ürəyində məni söyürdü. İçə bilmirsən, içmə deyirdi. Hətta qonşu stolda oturanlardan biri Arifi dözümlülükdə tərifləyir, məni təqsirkar bilirdi, zəiflikdə təqsirləndirirdi.

Bunları öz qulağımla eşidirdim.

Küçəyə çıxdıq. Arifin 30 manatını çıxarıb verdim. O, bic-bic gülümsünüb, sonra üzünü mənə çevridi:

- Yeyib-içən oğlanlara eşq olsun. Ə, nə vaxt pulun qurtararsa, maaşa qədər gəlib nə qədər istəsən, götürərsən. Bu dünyada ancaq yeyib içmək qalacaq.

İnanırsanmı, az qala onu bu sözlərindən ürəyim partlayacaqdı. Çevrilib Arifi başdan-ayağa süzdü. Deyəsn özü də, bu baxışın mənasını hiss etdi. Əlimi ona uzatdım:

- Hələlik - dedi.

- Mən hələlik yox, həmişəlik dedim. - O, yenə bic-bic gülümsündü. Ə, onda araqla da həmişəlik? - deyə soruşdu.

- Bəli, araqla da həmişəlik dedi.

- Sən öl inanmaram.

- İnan, inan, Arif, indiyənə qədər mənim gözümü bağlayıb, səni və sənin kimiləri tanımağa mənə imkan verməyib.

Avtobus növbəti dayanacağa yaxınlaşırdı. Mən həmin dayanacaqda düşməliydim. Tanımadığım bu adamların söhbətindən ayrılmaq istəməsəm də, düşməliydim. Çünki vacib işim var idi. Onlar söhbətlərinə yenə davam edirdilər. Buna söhbət də demək olmaz. Çünki, onların uzun tayı danışır, gödək yoldaş isə böyük səbrlə onu dinləyirdi.

BİR YUXULUQ SEVİNC

- Ay oğul, qadası, ömrüm-günüm sənə qurban. Evlən deməkdən ağzımda dilim qabar oldu. Nə gözləyirsən, tay-tuşların hərəsinin, uşaqları var. Mən də deyəndə ki, gəl öz bacıcığazımın qızını sənə alım, dəmir yeyib göyə üfürürsən. Heç bilmirəm, evim tikilib, sənə nə olub? Bəxtini bağladıblar, nədir? Baş açılası əməl deyil. Vallah, ay oğul, adamın özününkü yaxşıdır. Ətini yesə də, sümüyünü çölə atmaz. Yad qızının harası ağrıyır. Necə ki, canın sağdır, cibin pulludur sənindir. Elə ki, Allah eləməmiş kimi, dilim ağzım qurusun, iraq səndən başın ağrıdı, başlayacaq gözləri ilə başqa yerlərə baxmağa. Gəl ətəyindən daşı tök, ay bala, hansı başı daşlı ana övladının pis gününü istəyər? Nə vaxtacan subay gəzəcəksən? Vallah, qonşuların tənəsi məni lap canımdan bezdirib. Dünən Vəlişin arvadı Gülüş qabağımı kəsib deyir ki, ay Nərgiz, bu gədəni də evləndir. Niyə gecikdirirsən, olmuya həkimlər zad məsləhət görüb ki, hələ evlənməsin? Özün fikirləş, qadan canıma gəlsin, bu söz nə deməkdir? Onun özü nədi ki, mənə bu sözləri desin? Külü qoyum onun təpəsinə. Öz ayıbına kor olmur. Oğlu sezonan gələndə bir fintifiruşqa gətirmişdi. 15 gün tab eləmədi kəndə. Heç bilirsənmi, gedəndə nə deyirmiş? Eto ni şizni nə bilim nə? Deyən yoxdu ona ki, öl canın çıxsın, sən nə bilirsən ağzının dadını. İndi də məni belələrinin yanında başı qaxanclı eləmə. Dünən də xalan bizə gəlmişdi. Deyirdi ki, özümünküdü. Əli də mənim canım-ciyərim. Uşağınızı gəlin aparın. Bir başa düş, gözümün işığı. Mən də dünyanı 4 əlli tutub qalası deyiləm. Bir ayağım qəbirdədir, başım gora titrəyir. Öləndə sən sarıdan rahat ölüm. Ayağımı uzadıb rahat can verə bilim. Bilim ki, sənin də evineşiyin var, bir tikə çörəyini hazırlayıb verənin var. Etibarsız dünyadı, ay bala, bu gündən sabaha etibar yoxdu. Əli anasının iki ildən bəri demək olar ki, hər axşam davam edən nitqini, yenə böyük səbrlə dinlədi. Bu nitqdən sonra bircə hər axşam təkrar etdiyi sözləri deyə bilmədi. Deyə bilmədi ki, ay ana, sən Allah başqa şeydən danış. Deyəsən, söhbət etməyə başqa dərdimiz, zadımız yoxdu. Əli özü də bilmədi ki, bu sözləri niyə deyə bilmədi. Onun ağzını, nitqini bağlayan bu axşam nə oldu? Niyə bircə kəlmə danışa bilmirdi, gözlərini anasının üzünə zilləyib durdu?

Birdən-birə onun bədənini soyuq bir tər basdı. Arvadı elə bil ki, birinci dəfə idi görürdü. Niyə o əvvəllər də anasına diqqətlə baxmayıb? Əli o saat da özüözünü yamanladı ki, o, indiyə qədər diqqətlə baxmalıymış, saçının birini ağ, birini qara hörüb. Onu böyüdən anaya, bax, budur, onun üzündəki qırışlar da çoxalıb, saçlarına düşən dən də artıb. Həmişə zəhmətə öyrəşmiş əllərinin üstündəki dəri də büzüşmüş qırışıb. Birdən-birə Əli anasının duruşunda böyük yazıqlıq sezdi. Ürəyindən sanki nazik bir tel qopdu.

- Evlənəcəyəm, ay ana, bircə xalamın qızı ilə yox!

- Gəl, ətəyindən daşı tök, bala!

- Mən bilirəm xalamgil sənin başını doldurub. Mənimlə onunku tutmaz. Bəlkə də, o, məndən də yaxşıdır, həyatı başa düşəndir. Sadəcə olaraq, xoşuma gəlmir. Bir də ki, ay ana, qohumla yenidənn qohum olmağın nə mənası? Buna heç həkimlər də icazə vermir.

- Ağrım həkimlərin ürəyinə. Əgər elədirsə, özləri əməl etsin də. Doktur Vəli öz əmisinin qızını niyə alıb? Ağlın olsun, ay bala! Ağlın olsun!

Əli hiss etdi ki, anasını başa salmaq yenə çətin olacaq. Odur ki, yataq ay ana, səhər söhbət edərik, o barədə - deyə anasının əzabını artırmamaq, uzunuzadı yormamaq üçün yataq otağına keçdi. Nə qədər çalışsa da gözünə yuxu girmədi. Görünür yatmaq onun üçün çox da asan olmayacaqdı. Fikirlər onu rahat buraxmırdı.

"Anam haqlıdır. Bəs mən indiyə qədər niyə birini sevib-seçməmişəm? Buna imkanmı olmayıb? Məhəbbət nədi, ondan da bixəbərəm. Romanlardan oxumuşam. Eh, lənətə gələsən..."

Bu düşüncələr içində Əli yuxuya getdi və bəlkə də, sizə qəribə görünəcək bir yuxu gördü. Gördü ki, nəhayətsiz bir səhrada irəliləyir. Elə bir səhra ki, nə ucu, nə bucağı var. Özü də getdikcə yaman susayır. Günəş də başından od eləyir. Dodağı quruyur, nəfəsi təngiyir, su üçün ürəyinin başı göynəyir. Əli dərdini deməyə bir adam axtarır ki, mən susundan yanıram: Bu səhra nə vaxt qurtaracaq? Amma adam yoxdur ki, dərdini desin. Ağzını açıb boş səhraya qışqırır. Səsi isə çox uzağa getmir. Əli gözlərinə inanmadı, heç inanılası da deyildi. Səhra, zad nə gəzir? Bura onların kəndinin qarşısındakı Söyüdlü dərə idi. Əli özü dərədəki daşlı bulağa tərəf addımladı. Bir qız da bulaqdan su doldurur. Əli qıza salam verməməyi ədəbsizlik bildi.

- Salam!

- Salam!

- Bir qab su verərsən?

- Elə bil ciyərin yanır?

- Hə, elədi...

- Su Allahındır, yezid deyiləm ha!

Baxışlar qarşılaşdı. Həmin andaca Əlinin bədənini od-alov bürüdü.

Bu nə şeydi? Bu qızın gözlərində sehir var, nədir? Qızın Əliyə uzatdığı qabı Əli ala bilmədi. Qab əlindən yerə düşdü. Əlinin əli havadan asılı qaldı.

Qızın incik səsi eşidildi:

- Adını oğlan qoymusan, bir qab suyu da alıb içə bilmirsən. Siz gözəlsiniz! Bəs adınız nədir? Hələ mənim adımı bilmirsən hə? Mənsə sənin bilirəm. Əlidir. Mən səni tanıyıram, sənsə məni yox. Ona görə ki, başını qaldırıb dünyaya baxmırsan. Görmürsən ki, dünyada nələr olur? Hər bahar neçə rəgdə çiçəklər açır. Hamısının da öz rəngi, öz ətiri. Payız gələndə o çiçəklər necə solur, onu da hiss etmirsən. Ona da fikir vermirsən ki, həmin çiçəkləri heç çiçəkdən həzz almağı bacarmayanlar dərir, sonra isə ayaqlar altına atır. Yazıq çiçəklər də saralır-solur. Ayaqlar altında torpağa qarışır. Düzdürmü, sənin onlara heç yazığı da gəlmir.

Qızın bu sözlərindən Əli özünü tamam itirmişdi. Axı, bu qız kim idi ki, günorta çağında bulaq başında, həyatdan, çiçəkdən "dərs deyir", "filosofluq" edirdi. Odur ki, qızın söhbətini yarımçıq kəsdi.

- Siz adınızı demədiniz?

- Adımı neynirsən? Bir də ki, maraqlanansan, öyrənə bilərsən. Çəpər-çəpərə qonşuyuq. Yenə deyirəm, başını qaldır, dünyaya açıq gözlə bax! Həyat bir yerdə durmur, axıb gedir. - Qız bu sözləri deyib, yola düzəlir. Əli nə qədər çağırdısa, onu saxlaya bilmədi.

- Dur, anan gözlərinə qurban, ay oğul, işə gecikirsən, nə vaxdacan yatacaqsan? Bu yuxudan nə tapmısan? Bu nə vaxtın yatmağıdı? Əli gözlərini oxalayıb yuxudan ayıldı. Həyətə çıxan kimi çəpərdən qonşularının həyətinə sarı boylandı. Qonşunun qızı da Somovara od ata-ata Əligilin həyətinə boylanırdı. Əli anasının yanına qayıtdı. Onu boynundan qucaqlayıb, üz-gözündən öpdü.

- Evlənməyə razıyam, ana!

Ananın gözlərində bir dünyalıq sevinc parladı: Sənə çox şükür, İlahi! Bilirdim ki, razı olacaqsan. Boyuna qurban olum ay bala!

1978



Məhəmməd Məhərrəmov